# Hüseyn Cavidin "İblis" əsəri Monteneqroda təqdim edilib




Azərbaycan Respublikasının Monteneqrodakı Diplomatik Nümayəndəliyi və Azərbaycan - Monteneqro mədəni-iqtisadi mərkəzinin təşəbbüsü və dəstəyi ilə Podqoritsa şəhərində dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin Monteneqro dilində dərc edilmiş "İblis" əsərinin təqdimat mərasimi keçirilib.

AZXEBER.COM xəbər verir ki, tədbirdə Monteneqronun dövlət və hökumət rəsmiləri, deputatlar, ölkə parlamentinin Azərbaycan ilə dostluq qrupunun üzvləri, elm, incəsənət və din xadimləri, diplomatik korpusun nümayəndələri, bu ölkədə yaşayan, çalışan və təhsil alan həmvətənlərimiz iştirak ediblər. Təqdimat mərasimi başlamamışdan öncə bir qrup tədbir iştirakçısı Azərbaycan dövləti və hökumətinin dəstəyi ilə Podqoritsa şəhərində abadlaşdırılmış və bərpa edilmiş "Kral" parkına gələrək, Monteneqro xalqının görkəmli oğlu, dünya miqyasında tanınmış naşir Bojidar Podqoriçaninin və Hüseyn Cavidin burada ucaldılmış abidələrini ziyarət etmiş, onların önünə gül dəstələri düzmüşlər.

Monteneqronun ən böyük təhsil ocağı sayılan Monteneqro Universitetində keçirilmiş mərasimi açıq elan edən universitetin prorektoru Boris Vukiçeviç, tədbir iştirakçılarını salamlayaraq, Monteneqro oxucularına heç də yad olmayan Hüseyn Cavid yaradıcılığı ilə öz ana dillərində tanış olma imkanı yaradan şəxslərə minnətdarlığını bildirib. Tədbirin onun təmsil olunduğu universitetdə keçirilməsindən son dərəcə məmnunluğunu ifadə edən prorektor iştirakçılara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Azərbaycanın Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı səfiri Eldar Həsənov, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Podqoritsada yerləşən qədim tarixə malik "Kral parkı"nda Cavidin abidəsinin ucaldılmasından söz açaraq, bu abidənin dünya miqyasında tanınmış naşir Bojidar Podqoriçaninin abidəsi ilə yanaşı ucaldılmasının iki xalq arasında nəcib amala -dostluğa və humanizmə xidmət etdiyini vurğulayıb.

Azərbaycan dövlətinin o zamanki rəhbəri Heydər Əliyevin birbaşa müdaxiləsi nəticəsində Cavidin üzərindən bütün qadağaların götürüldüyü, Cavidin cənazəsinin qürbətdən, uzaq İrkutsk vilayətindən vətənə gətirilib doğulduğu torpaqda dəfn edildiyini vurğulayan səfir, Azərbaycan müstəqillik əldə etdikdən sonra isə Bakıda sənətkarın heykəlinin ucaldıldığı, adını daşıyan gözəl park salındığı, Naxçıvanda isə onun qəbri üzərində memarlıq-xatirə kompleksinin yaradıldığını deyib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov öz çıxışında Hüseyn Cavidi dünya ədəbiyyatının ən məşhur simaları ilə müqayisə edərək onu əbədi olan duyğu və düşüncələrdən əbədi yaşamaq haqqı olan solmaz incilər yaratdığını bildirib. Natiq "İblis"in bu incilərin ən parlaqlarından biri olduğunu söyləyərək, həmçinin "İblis"i bu gün Cavidin görmədiyi Monteneqroya gələn, Cavidin bilmədiyi Monteneqro dilində danışmağa başlayan, sabah daha başqa ölkələrə ayaq açacaq, daha başqa dillərdə danışacaq əbədi bir əsər kimi qiymətləndirib.

Hüseyn Cavid irsinin araşdırmaçısı, şair Fərid Hüseyn dahi şair, bəşəri əsərlər müəllifi Hüseyn Cavidin irsinin bu gün dünyada layiqincə təbliğ olunduğunu söyləyərək, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Hüseyn Cavidin 125, 130, 135 illik yubileylərinin keçirilməsi haqqında müxtəlif dövrlərdə sərəncamlar imzalaması və dahi şairin yaradıcılığına daim yüksək həssaslıqla yanaşmasını qeyd edib. Bu gün ədibin əsərlərinin dünyanın bir çox ölkələrində səhnəyə qoyulduğu, əsərlərinin ardıcıl olaraq tərcümə və nəşr edildiyinə diqqət çəkən şair, bu istiqamətdə görülən işləri sadalayarkən Hüseyn Cavid irsinin tanınmış tədqiqatçısı Sona Vəliyevanın fəaliyyətini xüsusi qeyd edib. "İblis" əsərinin Monteneqro dilində nəşr edilməsini tarixi hadisə kimi qiymətləndirən şair, bunun yaşı bilinməyən tarixin ədibimizə verdiyi növbəti həqiqi dəyər olduğunu söyləyib.

Monteneqronun tanınmış yazıçıları akademik Sreten Vuyoviç, Qoran Sekuloviç, Çetinya Kitabxanası İcraiyyə Şurasının üzvü, publisist Bojidar Proroçiç, Azərbaycan Yazıçılar Birliyinin bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin sədri Səlim Babullaoğlu, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan, gənc dramaturq Draqana Tripkoviç Hüseyn Cavidi dramaturq, şair, ictimai xadim və dahi şəxsiyyət kimi səciyyələndirərək geniş yaradıcılığından və həyatından danışıblar.

Tədbirin sonunda Hüseyn Cavid haqqında qısametrajlı sənədli film nümayiş etdirilib.

Tədbir Monteneqro KİV-lərində geniş işıqlandırılıb.

Kaspi 2019.- 26-28 oktyabr.- S.9.